# XASIYEV SAMİR ZİRƏDDİN OĞLU



20 aprel 1973-cü ildə Bakı şəhərində doğulmuşdur. 1980-cı ildə Bakının Nərimanov rayonundakı 82 saylı orta məktəbin birinci sinfinə getmişdir. 1988-ci ildə ailəsi Gəncə şəhərinə köçdüyü üçün orta təhsilini Gəncə şəhər 14 saylı beynəlmiləl orta məktəbində tamamlamışdır. Sonra Bakıya gələrək 1991-ci il Bakı Dövlət Universitetinin Tarix fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. Birinci kursda oxuyarkən hərbi xidmətə çağırılır və Dərnəgüldəki tikinti batalyonunda xidmət edir. S.Xasıyev qısa təlim keçdikdən sonra ön cəbhəyə yola düşür. 1992-ci ildə isə rəhbərlikdən döyüş bölgəsinə göndərilməsini xahiş etmişdir. İlk döyüş yolu Ağdamın Mərzili kəndindən başlamışdır. 1993-cü ildə Füzuli, Ağdərə bölgələrində aparılan əməliyyatlarda fəal iştirak edir. Bacarığı, səriştəsi nəzərə alınıb iki aylıq zabitlər kursuna göndərilir. S.Xasıyev leytenant rütbəsi alandan sonra yaratdığı bölüyə komandir olur. 1994-cü ildə isə “Gəncə qiyamı”nın yatırılmasında iştirak etmişdir. “Hərbi xidmətlərə görə” medalı ilə təltif edildi. 1995-ci il martın 17-də dövlət çevirilişinə cəhd dinc yolla həllini tapa bilmədi. Bölük qərargaha daxil olarkən snayper gülləsindən Samir Xasıyev qarın nahiyəsindən yaralanmış, onun həyatını xilas etmək mümkün olmamışdır. Bakı şəhərindəki 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə leytenant Xasıyev Samir Zirəddin oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Bakınının Nərimanov rayonundakı keçmiş Montin adına Mədəniyyət və İstirahət parkına Samir Xasıyevin adı verilmiş və parkda büstü qoyulmuşdur.